# Mədəniyyət və incəsənət fədaisi

## Onun yüzə qədər mahnısı var ki, hələ ictimaiyyətə təqdim edilməyib



**”Ana torpağım mənim Bakı”, ”Azərbaycan” , ”Bala gəlin”, ”Biləydim kaş”, ”Dayağım ol”, ”Gecələr”, ”Sevgilimə könül açdım”, ”Sevincim”, ”Şirin yuxun olaydım”, ”Təki sən səslə məni”, ”Heç küsməyin yeridirmi?” kimi dillər əzbəri olan neçə-neçə mahnının müəllifi olub bəstəkar Şahid Əbdülkərimov. O, həmçinin xor dirijoru, aktyor, müğənni, tarzən kimi tanınıb. Buna görə, onu yaxından tanıyanlar bəstəkarı ”mədəniyyət və incəsənət fədaisi” adlandırırdılar.**

### ŞƏFİQƏ AXUNDOVANIN MUSİQİ SİRRİ

Tanınmış bəstəkar 1938-ci ilin oktyabr ayının 30-da Şəki şəhərində anadan olub. Orta təhsilini də Şəki şəhər 12 saylı məktəbdə alıb. Uşaqlıqdan musiqiyə həvəsi, onu 1948-ci ildə Şəki pionerlər evinə gətirib. Tar müəllimi İbad Salmanov ona musiqi sənətinin sirlərini öyrədib. Ustad sənətkar Şahidin fitri qabiliyyətini duyub və onunla fərdi məşğul olub. Az sonra Şahid təhsil aldığı orta məktəbin bədii özfəaliyyət dərnəyinin ən fəal üzvlərindən biri kimi tanınıb. Məktəblilərin ümumrayon tədbirlərindəki fəallığını görən Şəki Xalq Teatrının baş rejissoru, Respublikanın Əməkdar artisti Məmmədkəbir Hacıoğlu 1956-cı ildə Şahidi rayon mədəniyyət evində fəaliyyət göstərən dram dərnəyinə dəvət edir. Şahid bir çox tamaşalarda, hətta, əsas rollarda çıxış edir. Teatrda uğurlu rolları olsa da, musiqiyə olan həvəsi 1957-ci ildə Şahidi Bakı Mədəni-Maarif Texnikumunun xor dirijorluğu şöbəsinə aparır. Burada onun müəllimlərindən biri 1957-ci ildə Moskvada keçirilən ümumdünya tələbə və gənclər festivalının qalibi Qulu Əsgərov olur. Xanəndə, Şahidin istedadını yüksək dəyərləndirir və ona xüsusi qayğı, diqqət göstərir. 1960-cı ildə Şahid təhsilini başa vurur, təyinatla Zaqatala rayonuna göndərilir və rayon mədəniyyət evində əmək fəaliyyətinə başlayır.

**Əməkdar Mədəniyyət işçisi Vaqif Kərimovun** xatirəsindən: ”Şahid Əbdülkərimov ilk təyinatla Zaqatala rayonunda işləyəndə həmin illərdə Zaqatalanın birinci katibi Sadıq Murtuzayev idi. O, rayon tədbirlərində Şahidi tanımışdı və onun xüsusi istedad sahibi olduğuna bələd olmuşdu. Sonra Sadıq Murtuzayev 1963-1970-ci illərdə Abşeron rayonunda birinci katib işləyəndə Şahidin iş və mənzil məsələsinə xüsusi qayğı və diqqət göstərdi. Onların səmimi dostluq münasibətləri var idi. Ona görə, Şahid Bakıda yox, Abşeron rayonunda yaşamağa üstünlük vermişdi”.

Ş.Əbdülkərimov Zaqatalada bir il işləyir və ali təhsil almaq məqsədi ilə yenidən Bakıya qayıdır. Dolanışığını təmin etmək məqsədi ilə Xırdalan qəsəbəsindəki 1 saylı məktəbdə musiqi müəllimi işləməyə başlayır və həmin il M.A.Əliyev adına Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsinin axşam şöbəsinə daxil olur. O, ali təhsil aldığı illərdə Azərbaycanın bir çox tanınmış sənət adamlarından dərs alır. Onlardan biri də Şərqin tanınmış qadın bəstəkarı Şəfiqə Axundova idi. Şahidin bəstəkar kimi yetişməsində Şəfiqə xanımın xüsusi əməyi olub. Şəfiqə xanım ona sevilən mahnıların məhz muğamların sferasında yaradılmasının sirrini verir.

Abşeron rayon partiya komitəsinin birinci katibi Sadıq Murtuzayev 1963-cü ildə Ş. Əbdülkərimovu Abşeron rayon pionerlər evinə direktor təyin edir. 1966-cı ildə Şahid ali təhsilini başa vuranda onun mahnıları artıq dillər əzbəri olmuşdu. Azərbaycanda ilk dəfə Abşeron rayonu Bolqarıstanın Razqrad rayonu ilə qardaşlaşdığı üçün Şahid Əbdulkərimov ”Abşeron-Razqrad” mahnısını yazır. Həmçinin Xırdalan rayon pionerlər evinin xor kollektivi ilə Bolqarıstana qastrol səfərinə gedir. Bu Azərbaycan-Bolqarıstan dostluq əlaqələrinin genişləndirilməsində mühüm hadisə idi.



### XALQ RUHLU MAHNILAR

Ş.Əbdülkərimov 100-dən artıq sevilən mahnıya imza atıb. Bu mahnılar ən məşhur müğənnilərin ifasında səslənib, dillər əzbərinə çevrilib. Efirdə ilk səslənən ”Hanı bəs vəfan sənin” mahnısı Ümumittifaq səsyazma fondunda, patefon valına yazılıb. Mahnının ilk ifaçısı xalq artisti İslam Rzayev olub. Bir çox mahnıları AzTv-nin ”Qırmızı Qərənfil” uşaq xorunun ifasında səsləndirilib. Sonralar Azərbaycan Televiziyasının Uşaq Xorunun ifasında ”Naxçıvanım”, ”Ana torpağım mənim”, ”Bakı”, ”Təzə il”, ”Xoş gəldin” mahnıları lentə alınır. Uşaq xorunun bədii rəhbəri Əfsər Cavanşirov idi. O deyərmiş ki, uşaqlar Şahidin mahnılarını tez öyrənirlər. Çünki bu mahnıların musiqisi axıcı, ürəyəyatımlıdır, xalq ruhludur.

”Həmin illərdə Şahid müəllim çox məhsuldar işləyirdi və az vaxtda həm xalq arasında, həm də musiqi ictimaiyyəti tərəfindən tanındı. Şahid müəllimin demək olar hər həftədə bir mahnısı ictimaiyyətə təqdim olunurdu”.

Bəstəkarın mahnıları İslam Rzayev, Arif Babayev, Səkinə İsmayılova, Sabir Mirzəyev, Elmira Rəhimova, Məmmədbağır Bağırzadə, Nəzakət Məmmədova kimi müğənnilərin ifasında səslənib. Bəstəkar yazdığı mahnılara qarşı haqsızlıqla da üzləşib. Mahnıları uzun illər xalq mahnıları, təsniflər kimi təqdim edilib. Xalq artisti Abdulla Abdullayevin sözlərinə görə, ”Təki sən səslə məni” mahnısını ulu öndər Heydər Əliyevin çox sevdiyini, onun öz dilindən eşidib.

İlk dəfə Ş. Əbdülkərimovun mahnısı 1974-cü ildə Azərbaycan Televiziyasında özü tərəfindən səsləndirilib. Həmin ildə Bakı rayonlararası xalq yaradıcılığı evində ”Sən nəğmələr qoş” devizi ilə mahnı müsabiqəsi keçirilir. Bəstəkar o müsabiqədə 1-ci yerə layiq görülür. ”Şahid Əbdülkərimovun mahnıları ana laylamız olan ”Segah” muğamı üzərində yazılmışdı. Şahid Əbdülkərimovun mahnıları əsasən milli üslubdadır və muğamlarımızdan bəhrələnib. Onun özünün fərdi yaradıcılıq yolu, üslubu var idi. O, çox mütaliəçi idi, əvvəl gözəl sözlər - şeirlər tapırdı, həmin şeiri mətninə uyğun ahənglə əzbərləyirdi və sonra ona uyğun musiqi yaradırdı. Bəstəkar musiqi yazıb sonra söz axtarmırdı. O, əvvəl gözəl mətn - şeir tapırdı, sonra ona musiqi bəstələyirdi. Ən çox müraciət etdiyi şairlər Bəxtiyar Vahabzadə, Əliağa Kürçaylı, Süleyman Rüstəm, Cabir Novruz, Ramiz Məmmədzadə, Əbülfəz Naxçıvanlı idi. Yazdığı mahnıları bütün müğənnilərə, xanəndələrə lirik səslə özü oxuyub təqdim edirdi”.

### SƏN NƏĞMƏLƏR QOŞ...

1974-cü ildə Sadıq Murtuzayev Şəkiyə birinci katib təyin edilir. O, çox bacarıqlı, işgüzar bir rəhbər idi. Onun Şəkidə işlədiyi illərdə bütün sahələrdə dinamik inkişaf var idi. Həmin illərdə Şəkidə musiqi sahəsində zəifliyi görən Sadıq Murtuzayev yaxından tanıdığı və istedadını həmişə yüksək qiymətləndirdiyi Şahid Əbdülkərimovu rayona dəvət edir və onu tibb işçilərinin mədəniyyət evinin direktoru təyin edir.

”1974-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının Prezidenti Akademik Həsən Abdullayev Şəki şəhərindən Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdi. Onun təşəbbüsü ilə Akademiyanın yeni istifadəyə verilmiş akt zalında və Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində Şəki bədii özfəaliyyət kollektivlərinin konserti təşkil edilmişdi. Həmin konsertlərdə iştirak edən Şahid Əbdülkərimov özünün bəstələdiyi ”Təki sən səslə məni”, ”Ana məhəbbəti” mahnılarını özü ifa edir. 1976-cı ildə Şəkidə yeni tikilmiş tibb işçilərinin mədəniyyət evi istifadəyə veriləndə Sadıq Murtuzayevin təşəbbüsü ilə Şahid müəllim həmin mədəniyyət evinin direktoru təyin edilir”.

Bəstəkar tez bir zamanda Şəkinin xüsusi istedadlı musiqiçilərini həmin mədəniyyət evinə yığaraq ”Şəfa” mahnı və rəqs ansamblını və ”Səbuhi” ansamblını yaradır.

Ş.Əbdülkərimovun təşkil etdiyi istedadlı musiqiçilərdən ibarət həmin ansambllar özlərinin həm milli, həm də beynəlxalq mahnılardan ibarət repertuarı ilə Azərbaycanın bütün guşələrinə qastrol səfərlərinə gedirdilər. Ansamblların ifası Gürcüstanda, Şimali Qafqazda və hətta Moskvada SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanır.

1974-cü ildə Bakı Şəhər Xalq Yaradıcılığı evi ”Sən nəğmələr qoş” şüarı altında həvəskar bəstəkarların mahnı müsabiqəsini təşkil edir. Müsabiqədə Şahid Əbdülkərimov 1-ci, Bəhram Nəsibov 2-ci, Qafar Namazəliyev 3-cü yerə layiq görülür.

Tanınmış bəstəkarın yaradıcılığından xalqımızın musiqi irsinə əvəzolunmaz mahnılar yadigar qalıb. Ancaq onun yazdığı mahnılara qarşı diqqətsizlik də az olmayıb. Bəstəkarın yüzə qədər mahnısı var ki, hələ ictimaiyyətə təqdim edilməyib. Bu mahnıların araşdırılıb üzə çıxarılması, müəllif hüququnun tanıdılması ilə bağlı tədqiqatçı, musiqişünas əməyinə böyük ehtiyac var. ”Hələ özü sağ olanda bəzi müğənnilər onun mahnısını oxuyurdu, amma tamaşaçılara xalq mahnısı kimi və ya başqa müəllifin adı ilə təqdim edirdilər. ”Gecələr” mahnısının ətrafında da belə qalmaqal yarandı. Şahid müəllim belə hallarda həmin müğənni ilə görüşüb onunla səmimi söhbət edərdi və mahnını oxuyarkən yol verilən səhvləri ona izah edərdi. Heç ona demirdi ki, bu mahnının müəllifi mənəm, O, belə təvazökar idi və çoxları da onun bu xasiyyətindən sui-istifadə edirdilər. Bəstəkarın mahnılarının toplusunun olmaması belə hallara imkan yaradır. Kimlərsə bunu bilməyərək edir, bəziləri də gözəl bir mahnının müəllifi olmaq tamahkarlığı ilə bunu edirlər”.

Ş.Əbdülkərimov xoşbəxt bəstəkar olub. Ömrü boyu yazıb-yaradan bəstəkar xalqımıza, musiqi xəzinəmizə bir-birindən gözəl mahnılar bağışlayıb. Özü haqq dünyasında olsa da, həmin mahnılar daim səslənir, yaradıcısının ruhu da sakitlik tapır...

**Təranə Məhərrəmova**